# Ballıcada bitən həsrət

Xocalının Ballıca kəndində dünyaya gələn Sevil Əzimova xoşbəxt bir ailənin 7 övladından biri idi. Maddi baxımdan müəyyən çətinliklər çəksələr də, valideyn sevgisiylə dolu, şən, qayğısız uşaqlıq keçirirdilər. Hər gün həvəslə getdikləri məktəbləri, dərsdən sonra həyətlərində oynadıqları heyvanları, bir yerdə doğulub böyüdükləri qonşu uşaqları vardı dünyalarında. Ta ki bir gün tarixə düşəcək soyqırımının ilk ayaq səsləri eşidilənədək...

1980-ci illərin sonlarından erməni qonşuları evlərini onlara satmaları üçün Sevilgilin ailəsinə təzyiqlər edirdilər. Onların niyyəti ailənin ikimərtəbəli, 8 otaqlı, geniş həyətli evlərini alıb restoran etmək idi. Deyirdilər ki, "Onsuz da sizin burdan çıxmağınıza bir şey qalmayıb. Tezliklə bütün bu torpaqlar bizim olacaq". İş o yerə çatmışdı ki, uşaqlarını da çirkli əməllərinə alət etmişdilər. Erməni uşaqları məhəllə boyu qaçıb, evlərin qarşısında "Qarabağ Ermənistanındır, gedin burdan" deyə qışqırırdılar.

1988-ci ildə isə ermənilər mütəmadi olaraq kəndə hücum edir, qarşılarına çıxana atəş açırdılar. Buna görə də kənd camaatı gecələri qəbiristanlığın yerləşdiyi meşədə keçirirdilər. Kənddə yaşamağın təhlükəli olduğunu görən Sevilin ailəsi evlərini qıfıllayıb, qısa bir müddət üçün Xocalı şəhərinə köçür. Bundan qeyzlənən erməni qonşuları elə həmin gün onların evlərini yerlə yeksan edib, yandırıb külə çevirirlər.

Ballıcadan şəhərə gəlsələr də, burada vəziyyət kənddəkindən çox da fərqli deyildi. Mütəmadi eşidilən güllə səsləri artıq hamı üçün adi hal idi. Xocalı mühasirəyə alınmış, bütün girişlər bağlanmışdı. Yalnız vertolyot ilə çörək gətirilməsinə icazə verilirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə birdən çaxnaşma düşdü. Sevilgilin qonşuları başıalovlu qaçaraq o qara xəbəri gətirdilər. Ermənilər şəhərə girmişdilər. Az keçmədən döyüşdəki böyük qardaşı Hüseyn də gəldi. Ailə tez-tələsik evdən çıxıb meşəyə doğru qaçan insan axınına qoşuldu. Başlarına gələcəkləri hiss edərcəsinə birbirindən möhkəm yapışmışdılar. Göydən yağış kimi güllələr yağırdı. Qarlı-şaxtalı qış gecəsi, iliklərə işləyən buz kimi soyuq hava, qaranlıq, hara gedəcəklərini, onları nəyin gözlədiyini bilməyən günahsız insanlar...

Həmsöhbətim o qanlı gecədən danışdıqca xatirələr onu haldan-hala salır, özündən bixtiyar yanağından gözüyaşları süzülürdü. Yox, bu nurani və dərdli qadın yalnız xatırladıqlarını danışmır, həm də yaşayır. Qaysaq bağlamayan bu yara, sozalmış, amma sönməmiş xatirələr hər zaman onunla olacaq, unudulmayacaq.



Sevil xanım gözləri dolmuş halda "Kaş çarəm olaydı, fevral ayını təqvimdən siləydim. 30 ildir hər il fevralın girişindən yaramız təzələnir, eyni günü təkrar-təkrar yaşayıram" deyir. Nəyisə unudacağından qorxurmuş kimi aramla danışır, yaşadıqlarını təfsilatı ilə anlatmaq istəyir. Sonra sözünə davam edir...

Xocalıdan canını götürüb qaçan insanlar Qarqar çayını keçəndən sonra meşəyə giriblər. Bu yol onları od-alovun içərisinə apparsa da, başqa çıxış yolları yox idi. Birdən yaxınlıqda



bomba partlayıb, hamı pərən-pərən olub, hərə bir tərəfə qaçmağa başlayıb. Sevil xanım deyir ki, tükürpərdici çığırtılar insanın qanını dondururdu. Neçə-neçə qohumu, qonşusu ağrılar içində qovrularaq can verib. Ən dəhşətlisi isə 6 yaşlı əmisi oğlunun körpə bədəninin dəlik-deşik olmasıydı. Sevil ata-anasını da son dəfə canlı olaraq orda görüb...

Şəhərə yaxın meşədən sağ çıxanları qarşılayıb Ağdama aparıblar. Oradan Sevil və bacı-qardaşları Koncavənd kəndinə, qohumlarının evinə gediblər. Ata-analarının vəfatı xəbərini kiçiklərdən bir neçə gün gizlədib, hər dəfə soruşanda yaralı olduqlarını söyləyiblər. Cənazələri təhvil verilən gün böyük qardaşları göz yaşları içində həqiqəti söyləyib. Sevil Əzimova sonradan valideynlərinin necə şəhid olduğunu tanışlarından öyrənib. Anası qəfil güllələ dünyasını dəyişsə də, atası yaralı vəziyyətdə uzun müddət cansız bədənlərin arasında qalıb. Ermənilərin cansız bədənlərə belə necə zülm etdiyini gördükdə qeyzlə yaxınlıqda olan silahı götürərək atəş açıb...

Valideynlərini Ağdamda dəfn edib Oğuza yollanıblar, daha sonra Goranboya gedərək orada məskunlaşıblar. Uzun müddət özlərinə gələ bilməyiblər. Adi bir qapı cırıltısı, yarpaq xışıltısı belə onlarda qorxu, təşviş yaradıb. Hər an yeni faciə ilə üzləşmək qorxusuyla yaşayıblar. Yaxşı ki, tale onlara böyük qardaşları Hüseyni çox görməyib. O, 6 bacı-qardaşının qayğısına qalıb, böyüdüb boya-başa çatdırıb, toylarını edib. Valideynlərinin əmanətlərinə gözü kimi baxıb.

Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və qüdrətli ordumuzun şücaəti ilə torpaqlarımız azad olunduqdan sonra Əzimovlar ailəsi, nəhayət, yuxularından əskik olmayan valideynlərinin qəbrini ziyarətə gediblər. Amma ürəklərində Allah qorxusu belə olmayan pis xislətli düşmənin mənfur əlləri burada da heç yerdən yan keçməyib. Bütün qəbir daşları darmadağın edilib, üzərlərində bir nişanə belə qalmayıb. Çox çətinlikdən sonra valideynlərinin qəbrini tapıb ziyarət edə biliblər.

Ötən il dekabrın 14-ü Ballıcaya köçənlərdən biri də Sevil xanımgilin ailəsi olub. 1988-ci ildə çıxmaq məcburiyyətində qaldıqları evlərinə gedib: "Həyətimizə addım atdığımda sanki yenidən həmin 9 yaşlı qız oldum. Gözüm anamı, atamı axtardı. Qardaşlarımın toyu bu həyətdə olub, başdan-başa mağarlar, dəm-dəstgah qurulub. Ət kəsmək üçün atam kəndir hörüb asmışdı. Qurumuş ağacın dibində o kəndiri tapdıq, qardaşlarımla o ki var ağladıq. Yerlə yeksan olan həyətimizdə bir də tut ağacı qalıb. Başına dolanıb gizlənqaç oynadığımız, hər il meyvəsini dadmaq üçün səbirsizləndiyimiz tut ağacımız. İndi mən burdayam, gəlmişəm. Amma nə atam var, nə anam. Amma bilirəm ki, onların ruhu buradadır, bizimlədir".

Sevil xanım deyir ki, bu illər ərzində hər gecə gözünü yumanda özünü burada xəyal etsə də, bu xəyalının bir gün gerçəkləşəcəyinə, gerçəkləşsə belə onun bunu dünya gözü ilə görəcəyinə inanmayıb. İndi isə o, buradadır... Xocalıda... Ballıcada... Ailəsi, övladları, nəvələri ilə...

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***